





# DÖYÜŞÇÜLƏRİN DAVRANIŞ QAYDALARI

BQXK

QISACA

Beynəlxalq Qızıl Xaç Komitəsinin
Azərbaycan Nümayəndəliyi
Fətəli xan Xoyski pr. 75,
AZ1110 Bakı, Azərbaycan
T: +99412 465 63 35/34 F: +99412 465 65 19
E-mail: baku@icrc.org

BQXK

# DÖYÜŞÇÜLƏRİN DAVRANIŞ QAYDALARI

1. Yalnız kombatantlarla döyüşün.
2. Yalnız hərbi hədəflərə hücum edin.
3. Mülki şəxslərə və obyektlərə rəhm edin.
4. Hərbi tapşırığın yerinə yetirilməsindən artıq dağıntılara yol verməyin.

**KOMBATANTLAR:**
**Bu işarələrə hörmət edin!**



Onlar
- Yaralı və xəstələri
- Tibb işçilərini və Qızıl Xaç və Qızıl Ayparanın işçilərini
- Təcili yardım maşınlarını, Qızıl Xaç və Qızıl Ayparanın nəqliyyat vasitələrini
- Xəstəxanaları, ilk yardım məntəqələrini və Qızıl Xaç və Qızıl Ayparanın binalarını qoruyur.







1. Onları döyüş meydanından götürün.



2. Onlara qayğı göstərin.





DÖYÜŞ MEYDANINDA YARALANMIŞ DÜŞMƏNLƏR



3. Onları komandirinizə və ya yaxındakı tibb işçilərinə təhvil verin.



4. Tibb işçilərinə hörmət edin və tibbi avadanlığı qoruyun.

1. Yaralı, xəstə və gəmi qəzasına uğramış (o cümlədən təyyarə ekipajları) adamları himayə edin.



2. Hər döyüşdən sonra onları axtarın və döyüş meydanından götürün.









3. Yaralı və gəmi qəzasına uğramış adamları xilas edən mülki gəmi və qayıqları qoruyun.



4. Qızıl Xaç və Qızıl Aypara emblemləri ilə işarələnmiş xəstəxana gəmiləri və tibbi təyyarələri qoruyun.

1. Onlara rəhm edin.



2. Onları tərksilah edin.





DÜŞMƏN TƏRƏFİNDƏN OLAN HƏRBİ ƏSİRLƏR



3. Onları komandirinizə təhvil verin.



4. Onlara hörmət edin və insani rəftar edin. Ailələri onların tutulduğu barəsində məlumatlandırılmalıdır.

MÜLKİ ƏHALİ

1. Onlara hörmətlə yanaşın.





3. Onları pis rəftardan qoruyun. Onlardan qisas almaq və onları girov götürmək qadağandır.

2. Himayənizdə olanlarla insani rəftar edin.





4. Onların əmlakına hörmətlə yanaşın. Əmlaka zərər vurmayın və oğurlamayın.

Müharibə zamanı hətta düşmənə qarşı münasibətdə müəyyən qaydalara riayət edilməlidir. Bu qaydalar, əsasən 1949-cu ilin dörd Cenevrə Konvensiyasında və 1977 və 2005-ci il tarixli üç Əlavə Protokolda şəhr edilir.

Hazırda (iyul 2015-ci il) 196 ölkə dörd Cenevrə Konvensiyasına, 174 ölkə 1-ci Əlavə Protokola, 168 ölkə 2-ci Əlavə Protokola, 72 ölkə isə 3-cü Əlavə Protokola qoşulmuşdur. Cenevrə Konvensiyalarına və Əlavə Protokollara qoşulmaqla, Sizin dövlətiniz qeyd olunan sazişlərlə öz üzərinə öhdəlik götürmüşdür.

Həmin sazişlər insan şəxsiyyətinə və onun ləyaqətinə hörmət etmək ideyasına əsaslanır. Xəstəliyinə, yaralandığına və əsir düşdüyünə görə və ya hər hansı digər səbəbdən döyüş əməliyyatlarında artıq iştirak etməyən və döyüşlərdə ümumiyyətlə iştirak etməyən şəxslərə hörmət edilməli və onlar müharibənin təsirindən qorunmalıdırlar. Əzab çəkənlərə ayrı-seçkilik olmadan kömək edilməli və qayğı göstərilməlidir. Tibb işçiləri, hospital və sanitar nəqliyyat vasitələri, o cümlədən Qızıl Xaç və Qızıl Ayparanın işçiləri, binaları, avadanlıqlarının xüsusi qorunmaq hüququ var.

Dörd Cenevrə Konvensiyası aşağıdakı kateqoriyadan olan şəxsləri qoruyur:

- Quruda döyüşən silahlı qüvvələrin yaralı və xəstə üzvlərini və tibb işçilərini (I Konvensiya);
- Dənizdə döyüşən silahlı qüvvələrin yaralı və xəstə üzvlərini və gəmi qəzasına uğramışları (II Konvensiya);
- Hərbi əsirləri (III Konvensiya);
- Düşmən əlinə keçən və ya işğal olunmuş ərazilərdə yaşayan mülki əhalini (IV Konvensiya).





3-cü maddə bütün Cenevrə Konvensiyaları üçün eynidir. Bu maddə daxili münaqişələri tənzimləyir və münaqişədə iştirak etməyən və ya iştirakını dayandırmış şəxslərə qarşı humanist rəftarı təmin edir. 3-cü maddə xüsusilə qeyri-humanist rəftarı, girov götürməyi, işgəncəni, məhkəmə və istintaqsız cəzalandırma hallarını qadağan edir və bunu məhkəmə prosedurları zamanı bütün hüquqi təminatların nəzərə alınması ilə şərtləndirir. I və II Protokollar müvafiq olaraq beynəlxalq və daxili münaqişələri daha ətraflı tənzimləyir.

Hərbi əməliyyatlar zamanı mülki əhali, mülki və hərbi obyektlər arasında fərq qoyulmalıdır.

Cenevrə Konvensiyalarına üzv olan dövlətlər aşağıdakılara əməl etməlidirlər:

- Dost və ya düşmən olmasından asılı olmayaraq yaralılara eyni dərəcədə qayğı göstərməli;
- Mülki əhalinin və döyüşlərdə artıq iştirak etməyən şəxslərin fiziki toxunulmazlığına, şərəfinə, ləyaqətinə, ailə hüquqlarına, mənəvi və dini etiqadına hörmət etməli;
- İşgəncəni, qeyri-insanı rəftarı, məhkəməsiz cəzalandırma və amansızcasına məhvetmə hallarını, deportasiyanı, girov götürməyi, soyğunçuluğu və mülki obyektlərin dağıdılmasını qadağan etməli;
- BQXK-nın nümayəndələrinə münaqişə ilə əlaqədar tutulub saxlanmış şəxslərə baş çəkməyə və onlarla təkbətək danışmağa icazə verməli.





Qərəzsiz, neytral və müstəqil bir təşkilat olan Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) müstəsna humanitar səlahiyyəti silahlı münaqişə və digər zorakılıq halları qurbanlarının həyat və ləyaqətini qorumaq, onlara yardım göstərməkdən ibarətdir. O, həmçinin dünyəvi humanitar prinsipləri və humanitar hüququ təbliğ etmək və möhkəmləndirmək yolu ilə əzab-əziyyətlərin qarşısını almağa çalışır. BQXK 1863-cü ildə yaranmışdır və Cenevrə Konvensiyaları və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının banisidir. O, silahlı münaqişə və digər zorakılıq hallarında Hərəkat tərəfindən həyata keçirilən beynəlxalq yardım fəaliyyətini istiqamətləndirir və tənzimləyir.

## MƏHBUSLARA BAŞÇƏKMƏLƏR

BQXK-nın saxlanma yerlərindəki fəaliyyətinin məqsədi məhbuslarla insani rəftar edildiyini və onlara hörmətlə yanaşıldığını təmin etməkdir.

Hakimiyyət orqanları ilə konfidensial dialoqun bir hissəsi olaraq, BQXK məhbuslarla rəftar və saxlanma şəraiti barəsində tövsiyələr verir.

Bundan əlavə, BQXK saxlayan orqanlara maddi və texniki dəstək göstərir və ya ehtiyac olduqda müxtəlif xidmətləri birbaşa olaraq məhbuslara göstərir.

BQXK saxlanma yerinin gözətçilərindən tutmuş rəhbərliyinə qədər bütün səviyyələrlə işləyir.

## BAŞÇƏKMƏLƏR ÜÇÜN MEYARLAR

Cenevrə Konvensiyalarının əhatə etdiyi vəziyyətlərə aid olub olmamasından asılı olmayaraq, BQXK məhbuslar üçün həyata keçirdiyi fəaliyyətində eyni meyarları tətbiq edir:

- Onun nümayəndələrinin bütün məhbuslara baş çəkmək və onlarla sərbəst şəkildə və şahidsiz söhbət etmək imkanı olmalıdır;
- Onların bütün saxlanma yerlərinə baş çəkmək imkanı olmalı və bu başçəkmələri təkrar etməyə icazə verilməlidir;
- Onlara baş çəkiləsi bütün şəxslərin siyahısı verilməlidir (ya da belə siyahıların hazırlanmasına onlara yerindəcə imkan verilməlidir).



BQXK-nın Mərkəzi Axtarış Agentliyi, Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri ilə əməkdaşlıq şəraitində öz əzizlərindən ayrı düşmüş insanlara yardım göstərmək üçün çalışır. Silahlı münaqişələrdə və digər zorakılıq hallarında Agentliyin vəzifələri aşağıdakılardır:

- Normal əlaqə vasitələri kəsildikdə ayrı düşmüş ailə üzvləri arasında əlaqəni telefon zəngləri, ailə əlaqələri internet səhifəsi, radio yayımları və yazışma vasitəsilə təşkil etmək;
- İtkin düşmüş şəxslərə kömək etmək və ailələrinə onların harada olduqları barəsində məlumat vermək üçün onları axtarmaq;
- Uşaq və məhbuslar kimi kövrək şəxslərin itkin düşməsinin qarşısını almaq və olduqları yer barəsində ailələrinə məlumat vermək üçün onları qeydiyyata almaq və işlərini izləmək;
- Ailələri yenidən birləşdirmək, təhvilverilmə və repatriasiyaları təşkil etmək;
- İtkin düşmüş şəxslərin taleyini və olduqları yeri aydınlaşdırmağa kömək etmək və ailələrinin ehtiyaclarının qarşılandığından əmin olmaq.







BQXK-nın Mərkəzi Axtarış Agentliyinin və Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Ailə əlaqələrinin bərpası üzrə ölkənizdə təqdim etdiyi xidmətləri barəsində daha ətraflı məlumat əldə etmək üçün, aşağıdakı internet səhifəsinə daxil olun:

familylinks.icrc.org

Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri və BQXK istər sülh, istərsə də fövqəlada hallar zamanı ilk yardım üzrə təlimləri təklif edir, və ehtiyac olduqda birbaşa ilk yardım göstərir (milliyyətindən, irqindən, dinindən, sinfi və ya siyasi mənsubiyyətindən asılı olmayaraq).

Qızıl Xaç və Qızıl Ayparanın ilk yardım göstərənləri yalnız insanların ehtiyaclarını nəzərə alaraq və ən fövqəlada halları prioritet tutmaqla insan həyatlarını xilas etməyə və əzab-əziyyətləri yüngülləşdirməyə çalışırlar. Onlar hərbi əməliyyatlar zamanı heç kimin tərəfini tutmur və ya heç bir zaman siyasi, irqi, dini və ya ideoloji xarakterli mübahisələrdə iştirak etmirlər. Onlar ilk yardım və təlimləri könüllü əsasda təqdim edir. Onların məqsədi qazanc əldə etmək deyildir.

Qızıl Xaç və Qızıl Ayparanın ilk yardım göstərənləri identifikasiya və qorunma üçün fərqləndirici emblem geyinirlər. Onlara istər sülh dövründə, istərsə də fövqəlada hallarda humanitar fəaliyyətlərinin həyata keçirilməsi zamanı hörmət edilməli və dəstək göstərilməlidir.

QEYDLƏR ÜÇÜN



Zərərçəkmişi qaldırarkən, belinizdən ehtiyatlı olun; dizlərinizi bükün və belinizi düz saxlayın.

Zərərçəkmişin daşınma zamanı sakit olduğundan və ona nəzarət edildiyindən əmin olun.

Zərərçəkmişi sonrakı qulluq təminatçısına təhvil verin.





Aşağıdakılara əməl etmək olduqca əhəmiyyətlidir:

- Yaralı və xəstələrə hörmət etmək və onları qorumaq, o cümlədən onların səhiyyə xidməti ilə təmin olunmasına fəal dəstək göstərmək və şərait yaratmaq;
- Hansı tərəfə aid olmasından və mülki və ya hərbi olmasından asılı olmayaraq tibbi heyətə, tibb müəssisələrinə və nəqliyyat vasitələrinə hörmət etmək və onları qorumaq;
- Səhiyyə xidmətinin humanitar və qərəzsiz təbiətinə hörmət etmək;
- Tibbi heyətin, tibb müəssisələrinin və nəqliyyat vasitələrinin müstəsna olaraq tibbi məsələlərlə məşğul olmasını təmin etmək;
- Hərbi taktikanın bir hissəsi kimi səhiyyə xidmətini inkar etməkdən və ya ona mane olmaqdan çəkinmək;
- Qızıl Xaç, Qızıl Aypara və Qızıl Kristal fərqləndirici emblemlərinə hörmət etmək və onlardan sui-istifadə etməkdən çəkinmək.

## Çox soyuma (hipotermiya)

**Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.**





Zərərçəkmişin üstünü örtüb isidin.

Təmiz isti maye təklif edin. Zərərçəkmişi ovxalamayın.



Zərərçəkmişə nəzarət edin.

Zərərçəkmişin sonrakı qayğıya ehtiyacı varsa, onu təxliyə edin.

## Zərərçəkmişin qızdırması varsa

Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.



Zərərçəkmişi sərin yerdə yerləşdirin.
Sərinləşməsinə kömək edin (məsələn, yelpik çəkmək və ya üzünü nəm parça ilə silməklə).
Zərərçəkmişə nəzarət edin.
Zərərçəkmişə təmiz mayelər içirdin.



Zərərçəkmişin sonrakı qayğıya ehtiyacı varsa, onu təxliyə edin.







Zərərçəkmişi qaldırarkən, belinizdən ehtiyatlı olun; dizlərinizi bükün və belinizi düz saxlayın.

Zərərçəkmişin daşınma zamanı sakit olduğundan və ona nəzarət edildiyindən əmin olun.

Zərərçəkmişi sonrakı qulluq təminatçısına təhvil verin.

Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.







Yanmış hissəni mümkün qədər uzun müddət ərzində soyudun (məsələn, təmiz su altında saxlayın). Ağrı keçənə və ya zərərçəkmiş üşüyənə qədər davam edin.

Yanmış hissəni plyonka kimi təmiz material və ya plastik material ilə örtün.



Zərərçəkmişə məsləhət verin ki, sonrakı qayğı üçün müraciət etməsi üçün yanmış hissənin necə sağaldığına, ağrının davam edib etmədiyinə və ya infeksiya düşüb düşmədiyinə fikir versin.

Yanmış hissənin sahəsi zərərçəkmişin ovucundan böyükdürsə və ya bədənin konkret hissəsindədirsə (məsələn, üzü, cinsiyyət orqanları, oynaqları) sonrakı qayğı üçün müraciət edin.

Zərərçəkmiş uşaqdırsa, həmişə sonrakı qayğı üçün müraciət edin.





Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.







Zərərçəkmişi sərin kölgəli yerdə yerləşdirin.

Bədəninin soyumasına kömək edin (məsələn, yelpik çəkin və/ və ya üzünə, boynunun ətrafına, qolaltına və bud hissəsinə soyuq, nəm parça qoyun).



Zərərçəkmişə təmiz içməli maye verin.

Zərərçəkmişin sonrakı qayğıya ehtiyacı varsa, onu təxliyə edin.

## Dəlib keçən döş qəfəsi yaraları

Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.





Yaranı istənilən plastik material (və ya ona uyğun hər hansı digər material) ilə örtün. Material yalnız üç tərəfdən elə qoyulmalıdır ki, sarğı tamamilə örtülməsin (əks halda yaranı açıq saxlayın).

Zərərçəkmişi rahat vəziyyətdə uzandırın (yarı-oturaq vəziyyətdə).



Zərərçəkmişi təxliyə edin.







Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.



Əllərinizi yuyun.




Suyu filtrdən keçirib, qaynadın (içməli su olması üçün).

Su soyuduqdan sonra, ona şəkər tozu və duz qatın və ya varsa, daxilə qəbul üçün dehidratasiya duzunun bir paketini əlavə edin.

Mayeni zərərçəkmişə içməsi üçün verin.





Zərərçəkmişin sonrakı qayğıya ehtiyacı varsa, onu təxliyə edin.

Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.







Yaranı təmizləyin (təmiz maye ilə; sabunla və ya sabunsuz).

Yaranı təmiz parça ilə örtün. Yaraya nəzarət edin.

## Yara böyük və çirklidirsə və infeksiya əmələ gəlibsə

Yaranı təmizləyin (təmiz mayedən istifadə edin; sabunla və ya sabunsuz). Yaranı tamiz parça ilə örtün





Zərərçəkmişi təxliyə edin.





## Qarın boşluğunun yarası zamanı

Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.







Yaranı tamiz, nəm parça ilə örtün.

Əgər bağırsaq və digər daxili orqanlar yerindən çıxıbsa, onları geriyə itələyib qarın boşluğuna salmağa çalışmayın.



Zərərçəkmişi rahat vəziyyətdə uzandırın (ayaqları bükülmüş vəziyyətdə).



Zərərçəkmişi təxliyə edin.

Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.



Yuxarı və aşağı ətrafların sınığı zamanı sınmış ətrafın hərəkətsizliyini rahat və effektiv şəkildə təmin etmək üçün onu ehmalca ön və tam açıq vəziyyətə gətirmək lazımdır.



Ağrını və sonrakı əks təsirləri azaltmaq üçün ətrafı hərəkətsiz hala gətirin.



## Boyun nahiyəsinin sınığı zamanı



Başı ehmalca hərəkətsiz hala gətirin. Ağrını və sonrakı əks təsirləri azaltmaq üçün zərərçəkmişin bədənini horizontal, düz vəziyyətə gətirin.



SINIQLAR

## Açıq sınıqlar zamanı

Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.





Sınmış ətrafın hərəkətsizliyini rahat və effektiv şəkildə təmin etmək üçün onu ehmalca ön və tam açıq vəziyyətə gətirmək lazımdır.

Yaraya sarğı qoyun.



Ağrını və sonrakı əks təsirləri azaltmaq üçün ətrafı hərəkətsiz hala gətirin.



Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyl istənilən kömək üçün müraciət edin.



Ya zərərçəkmiş, ya da özünüz onun yarasını təmiz parça ilə sıxın.



Təmiz parça və ya hər hansı absorbent materialdan istifadə edərək yaranı sıxıcı sarğı ilə sıxın (8 formasında olan).



Ətrafın şişib şişmədiyini və ya göy rəng alıb almadığını yoxlayın (turna effekti) və sarğının ağrıtmadığından əmin olun. Bu əlamətlərdən birini görsəniz, sarğını azca boşaldın.

## Sıxıcı sarğı qana bulaşarsa



Birinci sarğının üzərindən bir də sıxıcı sarğı/təmiz material qoyun.







## Ətraf (əl və ya ayaq) amputasiya edilibsə



Turna qoymayın.

Sıxıcı sarğı qoyun.

## Ətrafa (əl və ya ayaq) hər hansı iti əşya giribsə



Turna qoymayın.

Həmin əşyanı çıxartmayın.



Həmin əşyanı hərəkətsiz vəziyyətə gətirin (ətrafına tənzif və ya təmiz parça qoyun).

Sıxıcı sarğı qoyun (əşyanı çıxartmadan).

## Boyun nahiyəsindən qanaxma

Sıxıcı sarğı qoyun (sıxıcı sarğı əks çiynin altından keçməlidir).





Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.






Zərərçəkmişin nəfəs almasını yoxlayın. Bunun üçün onun başını ehmalca arxaya çəkin, nəfəs alıb almadığına baxın, qulaq asın və hiss edin.



Zərərçəkmişin rahat nəfəs almasına, qan, tüpürcək və ya qusuntu kütləsi kimi mayelərin ağzından çıxmasına imkan yaratmaq üçün onu sabit vəziyyətdə böyrü üstə elə uzandırın ki, onun başı arxaya tərəf çəkilmiş olsun.

Zərərçəkmişin üstünü örtün.



## Tutma / epileptik qıcolma baş verərsə

Nə edəcəyiniz, səbəblər və üzləşə biləcəyiniz məhdudiyyətlər barəsində şahidlərə, dostlara və / və ya qohumlara qısaca məlumat verin. Ehtiyacınız ola biləcəyi istənilən kömək üçün müraciət edin.






Tutma zamanı nə sizin, nə də zərərçəkmişin yaralanmaması üçün təhlükəli əşyaları uzaqlaşdırın.

Tutma özü keçməlidir. Mümkündürsə, zərərçəkmişin başını zədələnməkdən qorumaq üçün başının altına yorğan, geyim əşyası və ya yumşaq material qoyun. Onun qollarını və ayaqlarını güclə saxlamayın; əks halda siz və ya zərərçəkmiş yaralana bilərsiniz.



Tutma keçdikdən sonra zərərçəkmişin rahat nəfəs almasına, qan, tüpürcək və ya qusuntu kütləsi kimi mayelərin ağzından çıxmasına imkan yaratmaq üçün onu sabit vəziyyətdə böyrü üstə elə uzandırın ki, başı arxaya tərəf çəkilmiş olsun.

Zərərçəkmişin üstünü örtün.



Təhlükəsizlik barəsində düşünün.
Təhlükəsiz davranın.



Zərərçəkmişi əmin edin – izah edin– rahat edin.



Yardım çağırın/axtarın.



Zərərçəkmişin sizə kömək etməsini təmin edin. Onu ətraflı müayinə edin.



Zərərçəkmişə nəzarət edin. Onun rahat olmasını, şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını təmin edin.



Ona təmiz mayelər təklif edin (zərərçəkmiş tam özündədirsə).



Sonrakı qayğıya ehtiyacı olan zərərçəkmişi təxliyə edin.

BÜTÜN YARALANMA HALLARINDA



Özünüzə ziyan dəyməsinin qarşısını alın (minalanmış sahələrdən, yanğından, zərərli maddələrdən və.s uzaq durun).



Zərərçəkmişin ifraz etdiyi maddələrə birbaşa toxunmayın (qan, tüpürcək, qusuntu kütləsi).



Zərərçəkmişi təhlükə zonasından tez bir zamanda və təhlükəsiz şəraitdə uzaqlaşdırın.






Zərərçəkmişin qayğısına təhlükəsiz yerdə qalın.



Əllərinizi təmiz saxlayın.



Rahatlaşın/stressin öhdəsindən gəlin– ailə və dostlarınızı sakitləşdirin.

Bu buklet fövqəlada hal zamanı ilk yardım təminatı üçün məlumat və tövsiyələrdən ibarətdir. O, bütün vəziyyətləri əhatə edə bilməz, verilən tövsiyələr ümumi xarakter daşıyır. Təklif olunan davranış və tədbirlər aşağıdakıları nəzərə alaraq həyata keçirilməlidir.

- yerli tələbləri;
- mümkün mənbələri;
- əgər mövcuddursa, effektiv yerli təcrübəni və
- bundan sonrakı qayğının əlçatanlığı və bacarıqlar.

Bu səbəbdən də, BQXK verilmiş vəziyyətdə bu tövsiyələrin ən yaxşı çıxış yolu olmadığı halda heç bir məsuliyyət daşımır.
İlk yardım fövqəlada halda həyatı qorumaq, daha çox zədə və ya xəstəliyin qarşısını almaq və sağalmağa kömək etmək məqsədilə əziyyətin azaldılması üçün edilən ilk əsas kömәkdir. Bu məqsədlərə aşağıda göstərilmiş vasitələrlə nail olmaq lazımdır:

- Özünə, zərərçəkmişə və ya digərlərinə istər fiziki, istərsə də psixoloji ziyan vurmamaq və
- Öz emosional, fiziki, texniki və ya maddi məhdudiyyətlərin çərçivəsində hərəkət etmək.

Ad: ______________________ Tel.: __________________

Fövqəlada hal zamanı əlaqə saxlanılacaq şəxs:

______________________ Tel.: __________________

İLK YARDIM

Siz fövqəlada vəziyyətin öhdəsindən gəlmək, o cümlədən yaralı və ya xəstənin qayğısına təhlükəsiz və effektiv şəkildə qalmaq bacarığınızı (zərərçəkmişin yarası və ya vəziyyəti ilə bağlı kömək göstərməkdən əlavə) hadisə yerində olan digər şəxslərdən kömək istəmək və orada olan resurslardan istifadə etməklə daha da artıra bilərsiniz.

Bəzi hallarda sonrakı qayğıya ehtiyac ola bilər. Belə olan hallarda zərərçəkmişi vaxtında və təhlükəsiz şəraitdə müvafiq xidmət təminatçısına çatdırmaq lazımdır.

**Siz dərhal, təhlükəsiz və insani hərəkət etməklə həyatları xilas və ya xilas etməkdə kömək edə bilərsiniz**

Biz sizi ilk yardım kurslarında iştirak etməyə çağırırıq. Ölkənizdə fəaliyyət göstərən BQXK Nümayəndəliyi və ya Qızıl Xaç yaxud Qızıl Aypara Cəmiyyəti ilə əlaqə saxlayıb, sizə özünəgüvəninizi artırmaqda və bacarıqlarınızı möhkəmləndirmək/artırmaqda kömək edə biləcək belə növ kurslari və ya digər dəstəyi təklif edib etmədiklərini öyrənin. Siz bu kurslara getməklə fövqəlada hal zamanı təhlükəsiz, insani və effektiv şəkildə davrana biləcəksiniz.